HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
15 SENTYABR 2019-CU İL/ №017 (97)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2


DİL BİLMƏYƏN “YAZIÇILAR”

3


HƏYAT BİR İMTAHANDIR

5


MƏZLUMLUQDAN MÜBARİZƏYƏ DOĞRU

6


MƏMUR OLMAQ İSTƏYƏN TƏLƏBƏNİN ÖLÜMÜ

## GÜRCÜSTAN PARLAMENTİ YENİ HÖKUMƏTİ TƏSDİQ EDİB



Gürcüstan parlamenti keçmiş daxili işlər naziri Giorgi Qaxarianın başçılıq edəcəyi yeni hökumətə etimad göstərib. Səsvermədə 98 deputat yeni hökumətin lehinə səs verib. Yeni Nazirlər Kabinetində daxili işlər və müdafiə nazirləri dəyişib.

Yeni hökumətin tərkibi:

**Baş nazir Giorgi Qaxaria.**

Təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili.

Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Levan Davitşavili.

İqtisadiyyat və davamlı inkişaf naziri Natia Turnava.

**Müdafiə naziri İrakli Qaribaşvili**

Ədliyyə naziri Tea Tsulukiani.

Məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri Ekaterina Tikaradze.

Regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili.

Xarici işlər naziri Davit Zalkaliani.

**Daxili işlər naziri Vaxtanq Qomelauri.**

Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili.

Qeyd edək ki, parlamentdə təmsil olunan müxalif Avropalı Gürcüstan və Vahid Milli Hərəkat partiyalarından olan deputatlar yeni hökumətin tərkibinə etiraz olaraq iclasda iştirak etməyiblər.

## TÜRKİYƏ SƏFİRİ: “TÜRKİYƏ MÜTTƏFİQ VƏ TƏRƏFDAŞ ÖLKƏLƏRDƏ SABİTLİYİN OLMASINI İSTƏYİR”

“Türkiyə müttəfiq və tərəfdaş ölkələrdə sabitliyin olmasını istəyir”. Bunu Tbilisidə keçirilən “İndi nə?” beynəlxalq konfransda “Türkiyə və qonşuları” panelində Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib. Onun sözlərinə görə, Gürcüstan üçün Türkiyə əsas tərəfdaşlardan biridir.

“Türkiyə Gürcüstana ən çox investisiya qoyan ölkələrdən biridir. Sərmayələr ən çox energetika sektoruna qoyulur. Türkiyə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin də iştirakçısıdır.



Biz bu əməkdaşlığı gələcəkdə də davam etdirəcəyik”, - deyə Türkiyə səfiri bildirib.

## LEVAN İZORİA GÜRCÜSTANIN KƏŞFİYYAT XİDMƏTİNƏ RƏHBƏRLİK EDƏCƏK



Gürcüstanın keçmiş müdafiə naziri Levan İzoria ölkənin Kəşfiyyat Xidmətinə rəhbərlik edəcək. L.İzoria Xidmətin əməkdaşları ilə görüş keçirib və qurumda həyata keçirilən islahatlarla tanış olub.

O, Kəşfiyyat Xidmətinin keçmiş rəhbəri David Sucaşviliyə peşəkarlığına görə təşəkkür edərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

D.Sucaşvili Gürcüstan müdafiə nazirinin müavini təyin olunub.

Qeyd edək ki, L.İzoria 2016-cı ilin avqustundan 2019-cu ilin sentyabrın 3-dək Gürcüstanın müdafiə naziri olub.

## ARÇİL TALAKVADZE: GÜRCÜSTAN NATO-YA ÜZV OLMAĞA HAZIRDIR

“Gürcüstan NATO-ya üzvlük üçün strateji baxımdan hazırdır”. Bunu Gürcüstan parlamentinin sədri Arçil Talakvadze NATO Parlament Assambleyasının prezidenti Madlen Munla keçirdiyi görüşdən sonra bildirib.

O deyib ki, M.Munun Gürcüstana səfəri NATO-nun dəstəyini nümayiş etdirir.

“Biz bu əməkdaşlığın dərinləşdirilməsini alqışlayırıq. Gürcüstan parlamenti və NATO Parlament Assambleyası arasındakı əməkdaşlıq gələcəkdə də çox güclü olacaq. Fəxr edirik ki, gürcü hərbçilər NATO əsgərləri ilə birgə dünyanın ən çətin yerlərində azadlıq və dəyərləri müdafiə edir”, - deyə A.Talakvadze bildirib.



Spikerin sözlərinə görə, Gürcüstan demokratiyasını gücləndirir: “Seçki sisteminin dəyişdirilməsi, məhkəmə sisteminin yenidən qurulması, demokratik institutların gücləndirilməsi sübut edir ki, biz demokratiyanı möhkəmləndiririk”.

A.Talakvadze Gürcüstanın NATO-nun regionda ən etibarlı tərəfdaşlarından biri olaraq qalacağını qeyd edib.



# DİL BİLMƏYƏN "YAZIÇILAR"

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Elə bir multietnik, multikultural, multilinqvistik epoxaya düşmüşük ki, adam istər-istəməz poliqlot olur. Xüsusilə də, biz Gürcüstan azərbaycanlıları hər gün mağazalarda, apteklərdə, xəstəxanalarda, idarələrdə, bazarlarda və sair yerlərdə ən azı üç dildə "danışmalı", "başa düşməli" və "başa salmalı" oluruq.

"Dili xalq yaradır, filoloqlar kəşf edir və sistemləşdirir, yazıçılar isə onun üzərində söz sənəti yaradırlar" (V.Belinski). Mən bu yazıda nə xalqdan, nə filoloqlardan, nə də yazıçılardan danışacam, danışacağım internet dövrünün müasir yazı "janrı" olan status "yazıçıları" haqqında olacaq.

Danılmaz gerçəklikdir ki, bu gün sosial şəbəkələr həyatımızın bir hissəsinə çevrilərək vaxtımızın çoxunu almaqdadır. Yediyimiz yeməklərdən, geydiyimiz paltarlardan tutmuş, gəzdiyimiz yerlərə qədər – hər şeyimizi sosial şəbəkələrdə paylaşırıq, status yazırıq.

Bu gün sosial şəbəkələrdə Azərbaycan dilində status yazan gənclərimizin iki cümləlik yazısını başa düşmək müşkül məsələdir. Fokusu müasir texnologiyaya gecikmiş yaşlı nəslin deyil, gənclərin üzərinə vermək istəyirəm. Çünki yaşlıların buraxdıqları qrammatik səhvlər texniki olduğu halda, gənclərin səhvləri savadsızlıqdandır. Sosial şəbəkələr gənclərimizin ana dillərini bilmədiklərini dünya səviyyəsində ifşa edir. Ən acınacaqlısı da odur ki, bu gənclərin əksəriyyəti xaricdə təhsil alanlardır. Beş sözdən ibarət bir cümlədə on səhv buraxan bu gənclərin xaricdə aldıqları təhsilə belə şübhə yaranır. Axı 18-19 ilə öyrəndiyin dili 4-5 ilə unutmaq mümkün deyil.

Əvvəla, çox dil bilmək çox gözəldir, bunu heç kəs dana bilməz. İkincisi də, əgər insan öz ana dilini bilmirsə başqa dili də necə lazımdır öyrənə bilməz, öyrənsə də yenə bir dil bilmiş olur. İki (və daha çox) dil bilmək hər iki dili mükəmməl bilməkdir hər halda.

Bu gün Gürcüstanın Azərbaycandilli məktəblərində Azərbaycan dili və ədəbiyyatının tədrisinin lazımsız olduğunu deyənlər, övladlarını dil öyrənsinlər deyə (elm yox, məhz dil!) gürcüdilli məktəblərə qoyanlar ata-anaları ilə, nənə-babaları ilə hansı dildə danışıblar görəsən və oğul-qızları ilə, nəvə-nəticələri ilə hansı dildə danışacaqlar? Başqaları dilləri ilə, əlifbaları ilə fəxr etdikləri halda, biz dilimizdən imtina edərək özümüzü blakadaya salmış oluruq – keçmişlə gələcəyin ünsiyyətini, əlaqəsini kəsmiş oluruq. Həsən bəy Zərdabi "Bir milləti məhv etmək istəyirsənsə, əvvəlcə onun dilini, sonra isə özünü məhv elə" deyib. Rus mütəfəkkiri K.D.Uşinski də oxşar fikri söyləyib: "Bir milləti məhv etmək istəyirsənsə, ilk öncə, onun dilini əlindən al".

Bəli. Bu gün sosial şəbəkələrdən tutmuş, yeni yaradılan saytlara, televiziyalara, məktəblərə qədər dilimiz məhv edilir, əlimizdən alınır. Barmağı klaviaturanın düymələrinə basa bilən, "da", "də"nin harada şəkilçi, harada bağlayıcı, harada ədat olduğunu bilməyən hər kəs "Facebook"da millətə dil dərsi keçir, məktəb islahatı aparır.

Əzizlərim, başqa dili öyrənmək öz dilini unutmaq demək deyil, xaricdə təhsil almaq da həmçinin. Hansı dildə status yazırsız yazın, təbrik yazırsız yazın, çalışın ən azından o dildə oxuyanları təhqir etməmək üçün tam bildiyiniz dildə yazın. Yenə də dad yarımçıq əlindən. Axı deyiblər, dil – fikrin libasıdır. Fikirlərinizi elə geyindirin ki, çılpaq qalıb biyabır olmayasız.

# NATO-NUN SABİQ BAŞ KATİBİNİN FİKİRLƏRİ NARAZILIQLA QARŞILANIB



NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussenin Tbilisidə keçirilən "İndi nə?" ("Now what?") beynəlxalq konfransda səsləndirdiyi bəzi fikirlər narazılıqla qarşılanıb.

A.F.Rasmussen tədbirdə çıxışı zamanı bildirib ki, Gürcüstanda ölkənin Abxaziya və Cənubi Osetiya bölgələri olmadan NATO-ya üzvlük məsələsi müzakirə olunmalıdır.

NATO-nun sabiq baş katibinin fikirlərinə münasibət bildirən parlament çoxluğunun rəhbəri Qia Volski bildirib ki, istənilən beynəlxalq təşkilat Gürcüstanı beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində qəbul etməlidir.

O deyib ki, Gürcüstanın Abxaziya və Cənubi Osetiyasız NATO-ya üzvlüyü məsələsi qəbuledilməzdir.

Gürcüstan parlamentinin Müdafiə və təhlükəsizlik məsələləri üzrə komitəsinin sədri İrakli Sesiaşvili, öz növbəsində, ölkənin NATO-ya birmənalı şəkildə Abxaziya və Cənubi Osetiya bölgələri ilə birgə üzv olacağını deyib.

O qeyd edib ki, Gürcüstanın ərazi bütövlüyünü NATO, Avropa İttifaqı və əksər dövlətlər tanıyır.

# GÜRCÜSTAN XARİCİ İŞLƏR NAZİRLİYİ: GÜRCÜSTAN DAĞLIQ QARABAĞDA KEÇİRİLƏN "SEÇKİLƏRİ" TANIMIR



Gürcüstan Xarici İşlər Nazirliyi 2019-cu ilin sentyabrın 8-də Dağlıq Qarabağda keçirilən "yerli idaetmə orqanlarına" adlandırılan "seçkiləri" və onların nəticələrini tanımır. Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

Bəyanatda Gürcüstanın Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəklədiyini bildirib.

Bəyanatda həmçinin Gürcüstan Xarici İşlər Nazirliyinin münaqişənin beynəlxalq hüquq və prinsiplərə tam uyğun formada beynəlxalq ictimaiyyətin cəlb olunması ilə sülh yolu ilə həllinin tərəfdarı olduğu vurğulanıb.

# BAŞ NAZİRİN İKİ MÜAVİNİ OLACAQ



Baş nazir Giorgi Qaxarianın iki müavini olacaq. G.Qaxarianın müavinləri regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili və ədliyyə naziri Tea Tsulukiani təyin olunub.

"Bilirsiniz ki, bu adamlar bizim komandanın köhnə və təcrübəli üzvləri olublar. Ona görə də, əminəm ki, onlar komandanı daha da gücləndirəcəklər", - deyə Giorgi Qaxaria bildirib.

# HÖKUMƏT ADMİNİSTRASİYASININ APARAT RƏHBƏRİ İSTEFA VERİB



Gürcüstanın hökumət administrasiyasının aparat rəhbəri Giorgi Çoladze istefa verib. Bu barədə G.Çoladze sentyabrın 11-i "Facebook" səhifəsində yazıb.

O, hökumət administrasiyasının aparat rəhbəri vəzifəsində sonuncu iş gününün olduğunu bildirib.

Qeyd edək ki, ölkənin hökumət administrasiyasının aparatı strukturu ötən ilin iyulunda yaradılıb. Baş nazirin aparatına ictimaiyyətlə əlaqələr, protokol və xarici əlaqələr üzrə şöbələr tabedir.

## TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN HƏRBÇİLƏRİNİN İŞTİRAKI İLƏ DAĞ HAZIRLIĞI TƏLİMLƏRİ KEÇİRİLİR



Gürcüstanın Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, Gürcüstanda Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə dağ hazırlığı təlimi keçirilir.

Besik Kutataladze adına Saçxere dağ hazırlığı təlim mərkəzində təşkil olunan təlimdə Gürcüstanın 3, Azərbaycan və Türkiyənin isə, ümumilikdə, 13 hərbçisi iştirak edir.

Təlim çərçivəsində hərbçilər müxtəlif praktiki tapşırıqlar yerinə yetirirlər. İştirakçılar təbii divara dırmanma, çayı keçərkən maneələrin dəf olunması, təxliyyənin təşkili və tibbi qaydaları öyrənirlər.

Gürcüstan, Azərbaycan və Türkiyə arasında üçtərəfli əməkdaşlıq çərçivəsində keçirilən təlim kursuna sentyabrın 16-da yekun vurulacaq. Kursu başa vuran hərbçilərə sertifikatlar təqdim olunacaq.

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATININ NÜMAYƏNDƏLƏRİ TÜRKİYƏDƏ BİR SIRA DÖVLƏT QURUMLARINDA GÖRÜŞ KEÇİRİBLƏR



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) sədri Musa Hacıyev və layihə koordinatoru Zviad Koçalidze 12 sentyabr tarixində Türkiyənin paytaxtı Ankarada Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığında (YTB) görüş keçiriblər.

Görüş zamanı GYMD-nin sədri Musa Hacıyev "Gürcüstanlı tibb tələbələrinin Türkiyədə gəzinti və təcrübə layihəsi" və digər ortaq layihələr üçün YTB başqanına təşəkkür edib. Görüşdə həmçinin gələcəkdə reallaşdırılması planlaşdırılan layihələr də müzakirə edilib.

M.Hacıyev və Z.Koçalidze TİKA-nın Ankara ofisinə də baş çəkərək başqan köməkçisi Serkan Kayaları yeni vəzifəsi münasibəti ilə təbrik ediblər.




## "GÜRCÜSTANLI TİBB TƏLƏBƏLƏRİNİN TƏCRÜBƏ VƏ GƏZİNTİ PROQRAMI" LAYİHƏSİ SONA ÇATIB

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) təşkilatçılığı, Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığının (YTB) və Bursa Böyükşəhər Bələdiyyəsinin dəstəyi, Uludağ Universitetinin ev sahibliyi ilə Gürcüstandakı müxtəlif universitetlərin tibb fakültəsində təhsil alan 30 nəfər tələbənin iştirak etdiyi "Gürcüstanlı tibb tələbələrinin təcrübə və gəzinti proqramı" adlı layihə bu il də Türkiyənin Bursa şəhərində baş tutdu.

Layihədə iştirak edən tələbələr Bursanın Uludağ Universitetinin xəstəxanasında təcrübə keçərək öz sahələrində peşəkar olan həkimlərdən dərs almış, həmçinin müasir tibb texnologiyaları ilə işləməyi öyrənmişlər. Tələbələr həmçinin Bursa Bələdiyyəsinin təşkil etdiyi ebru kurslarına da qatılmışlar.

Layihədə iştirak edən gənclər üçün




Bursa, İznik, İstanbul, Çanaqqala, Ankara, Trabzon kimi şəhərlərə gəzinti təşkil edilib, onlar bu yerlərin tarixi və mədəni məkanları ilə yaxından tanış olublar. Bununla yanaşı YTB-nin Ankarada yerləşən mərkəzi binasında gənclərlə görüş keçirilib.

Qeyd edək ki, bir ay davam edən layihə avqust ayında həyata keçirilib. Layihə artıq 5 ildir ki davam edir.

## HƏYAT BİR İMTAHANDIR



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

Doğumla başlayan həyat ölümə doğru axıb getməkdədir. Bu gediş əsnasında qarşılaşacağı müsbət və mənfi bütün hadisələr qarşısında mömin Allaha qul olma prinsipinə uyğun hərəkət etməklə məsuldur. Çünki həyatın məqsədi yalnız yaşamaq, əylənmək və könlün arzularını təmin etməkdən ibarət deyil. Allah Təala qullarını dünyada müxtəlif imtahanlarla sınaqdan keçirir. Mömin də imanındakı səmimiyyəti və sədaqəti baxımından imtahana tabe tutular. Hətta bəzi çətinliklərlə sınana bilər.

Bəzən bizə doğrunu səhv, səhvi doğru olaraq göstərən şey bizim öz nəfsimiz ola bilir - öz qürurumuz, həsədimiz, özümüzü həddindən artıq önəmsəməyimiz, basdıra bilmədiyimiz dünyaya düşkünlüyümüz və sair qəlbi mərəzlərimiz, komplekslərimiz…

Kimsə sağına-soluna baxıb məndə bunlardan əsər yox deməsin. Bu duyğulardan hamımızda var. Allah hamımızın içinə potensial olaraq qoymuş bu duyğuları. Ona görə də ən böyük imtahanımız hər vaxt öz nəfsimizlə olur.

Bu həyatda gerçək mənada rahatlıq yoxdur. Rahatlıq imtahanın sona çatdığı andan etibarən başlayar ki, o da bu dünyadan köç etməklə mümkündür. Bu vaxt el arasında məşhur olan səhv bir düşüncəyə toxunmaqda fayda vardır. Bəli, anlayışa görə, yaxşı bir qul olmaq üçün dünya nemətlərindən imtina edib adamın özünü ibadətə verməsi lazım olduğu düşüncəsidir. Halbuki dinimizdə yaxşı bir qul olmaq üçün dünyanı tərk etmək lazım deyil. Əksinə axirət həyatı da bu dünyada qazanılmaqdadır. Həm dünya nemətlərindən istifadə edəcək, həm də yaxşı bir qul olacaqsan. Bu qeyri-mümkündür deyənlərə isə, xeyr, bunda heç bir çətinlik yoxdur deyə cavab verə bilərəm. Hətta dinimiz möminin güclü olmasını istəməkdə, alan əl yerinə verən əl olmağı prinsip olaraq təşviq etməkdədir. Necə ki, Peyğəmbər əfəndimiz (s.ə.s.) "İnsanların xeyirlisi digər insanlara faydalı olandır" buyurmaq surətiylə bu gerçəyi vurğulamaqdadır.

Həyat imtahanını qazanmaq istəyən insan bir gün öləcəyini və etdiklərindən hesaba çəkiləcəyini əsla unutmamalıdır. Ölümü və hesabı unutmaq insanı günah bataqlığına sürüyər. Günahlar isə insanın axirətdə xüsrana uğramasına səbəb olar. İnsanlar çox vaxt "irəlidə tövbə edərəm və ya Allahın mərhəməti genişdir, necə olsa bağışlayar" kimi şeytani düşüncələrin təsirində qalaraq günahlara dalmaqdadır. Halbuki bunun səhv bir davranış olduğu Quranda belə bildirilir: "Əsla çox hiyləgər (Şeytan) Allah haqqında sizi aldatmasın" (Fatir, 35/5). Bu vəziyyətdə insan günahlardan son dərəcə çəkinməli, əgər bilərək və ya bilməyərək bir günah işləyəcək olsa vaxt itirmədən tövbə etməlidir. Həyat imtahanında müvəffəqiyyətli olmaq üçün insan davamlı özünü nəzarət altında tutmalı və nəfs mühasibəsi içində olmalıdır.

Keçib gedən gəncliyini, ömrünü necə qiymətləndirdiyinin, qazandığı mal və sərvətiylə nələr etdiyinin, öyrəndikləriylə necə əməl etdiyinin mühasibəsini etməli və özünə çəki nizam verməlidir. Bu səbəblə səhv etməmək, ya da səhvlərdən təmizlənmək üçün nəfsimizi sorğulamalı və bu xüsuslara diqqət yetirməliyik.

Bəli, həyat bir imtahandır. İmtahanın məqsədi də Rəbbimizi tanımaq və ona qulluq etməkdir. Təbii ki, bu qulluq həyatın hər sahəsinə yayılmış bir qulluqdur. Yalnız məscidlərdə icra edilən bir qulluq anlayışından çox bu qulluğu hər hərəkət və ifadədə və həyat anlayışında axtarmaq lazımdır. İmtahan isə daim çətinlikli və streslidir. Buna görə dünya həyatı da çətinliklərlə doludur.

Peyğəmbərlər daxil bütün mükəlləf insanlar bu imtahan meydanına çıxarılmış, ağıllı olub yetkinliyə çatan hər kəs üçün imtahan başlamışdır. Bundan qaçışın və xilas olmanın imkanı yoxdur. Kimsəyə haqsızlıq edilməz. Yaxşılıq edən də, pislik edən də qarşılığını əskiksiz görəcək.

## MANANA RATİANİ: MÜƏLLİMLƏR İMTAHANINDA TƏXMİNƏN 55% TƏCRÜBƏÇİ MÜƏLLİM KOMPETENSİYASINI TƏSDİQLƏYİB



*“Müəllim olmaq istəyənlərin sayı bu il ötən illərlə müqayisədə üç dəfə çox idi. Bu o deməkdir ki, müəllim peşəsi müəllim olmayanlar üçün cəlbedici olub; sistemdə olan, indiyə qədər istədikləri kompetensiyanı qazana bilməyən müəllimlər isə imtahan verməyə qərar veriblər”,* - Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin direktor müavini Manana Ratiani “Etaloni.ge”yə danışıb.

**Onun sözlərinə görə, nəticələrə əsasən, müəllim kompetensiyasının təsdiqlənməsi ilə bağlı göstəricilər aşağıdır.**

*“Ümumilikdə bu il kompetensiyanın təsdiqlənməsi imtahanına böyük tələb var idi. Bunu ilk növbədə imtahan verən müəllimlərin sayı da göstərir və ötən illərlə müqayisədə üç dəfə artıq olan müəllimlərin sayı da əhəmiyyət daşıyır. Bu iki göstəriciyə əsasən deyə bilərik ki, müəllim peşəsi müəllim olmayanlar üçün cəlbedici oldu. Bu isə özlüyündə yaxşıdır, çünki yüksək rəqabət şərtlərində dərəcə də artır.*

*Ümumilikdə 15 500-ə qədər təcrübəçi müəllim fənn imtahanından, 13 700-dən çox müəllim isə peşəkar bacarıqlar imtahanından keçib və onların nəticələrini götürsək, kompetensiyanın təsdiqlənməsi ilə bağlı göstəricilər yüksək deyil. 1, 4, 7 və 10 kreditlə müəllimlərin təqribən 55 faizi fənn və ümumi bacarıqlarda kompetensiyasını təsdiqləyib”,* - Manana Ratiani bildirib.

**Ratianinin izahatına əsasən, müraciətlərdən dolayı noyabrda təcrübəçi pedaqoqlar və müəllim olmaq istəyənlər, ali təhsil müəssisəsinin sonuncu kursunda oxuyan tələbələr imtahanı yenidən verə biləcəklər.**

*“Əvvəlcə deyildi ki, noyabrda yalnız təkrar imtahanlar olacaq, amma bir halda ki, yazda qeydiyyat olan, lakin imtahanı verə bilməyən, yenidən imtahan vermək istəyi olan müəllimlərin marağı və müraciətlərinin sayı çox idi, qərara gəlindi ki, hamı yenidən imtahan versin. Yəni təcrübəçi müəllimlər, eləcə də sistemə daxil olanlar imtahan verə bilərlər. Bundan əlavə, yekun kursun tələbələri də imtahana qatıla bilərlər ki, sonra sistemə qoşula bilsinlər. Bilirik ki, qışda vakansiyalar olacaq. Buna görə də müəllimlik peşəsinə maraq olduqca böyükdür”,* - deyə M.Ratiani qeyd edib.

**“Etaloni.ge”nin kvalifikasiyasını artıra bilməyən müəllimlərin gələn il bunu edə bilib-bilməyəcəkləri ilə bağlı sualına M.Ratianinin cavabı belə oldu:**

*“Hər bir şəxsin kvalifikasiyasını artırmaq imkanı var. Sadəcə bu imkan fərqlidir. İşləyən müəllimlərə təlimlərlə kömək edirik, çünki onların kompetensiyasını təkmilləşdirməsi bizim marağımızdadır və belə imkan yenə olacaq. Eyni zamanda, başqa təşkilatlar tərəfindən keçirilən təlimlərdən yararlanmaq imkanları da olacaq”.*

## MÜƏLLİMLƏR İMTAHANINA QEYDİYYAT SENTYABRIN 10-DAN BAŞLAYIR

**Fənn imtahanı, eləcə də fənn və peşəkar kompetensiyanın təsdiqlənməsi üçün təcrübəçi müəllimlər və müəllim olmaq istəyənlər üçün qeydiyyat 10 sentyabr saat 10:00-dan başlayacaq və 17 sentyabr saat 18:00-da başa çatacaq. Qeydiyyat yalnız elektron olaraq www.naec.ge və online.naec.ge. veb-səhifələrində aparılır.**

İmtahanda iştirak edə bilərlər:

• Müəllimin peşəkar inkişafı və karyerada irəliləyişi inkişafı sxemində iştirak edən təcrübəçi müəllimlər;

• Milli tədris planına uyğun fənn/pillə qrupunun akademik dərəcəsinə sahib olan, yaxud qeyd olunan bakalavr/magistr proqramının yekun kursunda təhsil alan, bakalavr/magistr və ya bu dərəcələrə bərabər akademik dərəcəsi olan şəxslər; Yaxud hərbi/idman sahəsi üzrə təhsil almış şəxslər.

• Diplom əsasında müəllimlik hüququ olan, müəllim olmaq istəyən və ya qeyd olunan tədris proqramının yekun kursunda təhsil alan şəxslər;

Əgər şəxs yuxarıda qeyd olunan kvalifikasiyalardan hansınasa sahib deyilsə o, fənn imtahanından əldə etdiyi nəticədən müəllim peşəsi üçün istifadə edə bilməyəcək.

Təcrübəçi müəllimlər elektron şəkildə fənn (yalnız bir fənn seçə bilər), eləcə də peşəkar kompetensiyanı təsdiq edən imtahana qeydiyyat ola bilər. Müəllim olmaq istəyən şəxslər isə yalnız fənn imtahanı verə bilərlər.

İmtahan riyaziyyat, ictima elmlər, təbiətşünaslıq elmləri, estetik fənlər, idman və məlumat və kommunikasiya texnologiyaları üzrə rus, erməni və Azərbaycan dilində yalnız qeyri-gürcü dilli məktəblərdə/sektorda dərs deyən və ya dərs demək istəyi olan namizədlər üçün keçirilir.

Kompetensiyanın təsdiqlənməsi və imtahanın verilməsi sonrakı fənlər üzrə mümkündür:

• Gürcü dili və ədəbiyyatı (başlanğıc pillə);

• Riyaziyyat (başlanğıc pillə);

• Təbiətşünaslıq (başlanğıc pillə);

• Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I – IV siniflər);

• Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə);

• Gürcü dili ikinci dil kimi (başlanğıc, baza və ya orta pillə);

• Riyaziyyat (baza və ya orta pillə);

• İctimai elmlər (baza və ya orta pillə): tarix, coğrafiya, vətəndaş təhsili;

• Təbiətşünaslıq elmləri (baza və ya orta pillə): fizika, kimya, biologiya;

• Xarici dillər (başlanğıc, baza və ya orta pillə): ingilis, alman, fransız, rus dilləri;

• Estetik yetişdirmə fənləri: təsviri və tətbiqi incəsənət, musiqi, idman;

• İnformasiya və kommunikasiya texnologiyaları;

• Peşəkar bacarıqlar.

Bütün təcrübəçi müəllimlər üçün qeydiyyat pulsuzdur. Müəllimlik istəyi olanlar üçün isə qeydiyyat 50 laridir. Əgər 17 sentyabr saat 18:00-a qədər fənn imtahanında iştirak etməkdən imtina edərsə həmin şəxsə ödədiyi məbləğ geri qaytarılır (Bunun üçün həmin şəxs ərizə ilə Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzinə, bölgələrdə isə Təhsil Resurs Mərkəzlərinə müraciət etməlidir).

**Qeydiyyat üçün 50 larini aşağıda göstərilən yerlərdə ödəyə bilərsiniz:**

• Mərkəzin veb-səhifəsindən – məbləğə xidmət üçün 0,5 lari əlavə olunur;

• “Gürcüstan Bankı”nın xidmət mərkəzlərindən – məbləğə xidmət üçün 0,5 lari əlavə olunur;

• Epay.ge veb-səhifəsindən – məbləğə xidmət üçün 1 lari əlavə olunur;

• “Gürcüstan Bankı”nın terminallarından – məbləğə xidmət üçün 1 lari əlavə olunur;

• “Gürcüstan Bankı”nın internet bankinqi vasitəsilə (ibank.ge) – məbləğə xidmət üçün 1 lari əlavə olunur;

• OPPA.ge terminallarından – məbləğə xidmət üçün 0,5 lari əlavə olunur;

## DÖRDÜNCÜ FƏNN OLARAQ ÜMUMİ QABİLİYYƏT İMTAHANI VERMƏYİ TƏLƏB EDƏN UNİVERSİTETLƏR

**2020-ci ildə abituriyentlər vahid milli imtahanları yeni modellə verəcəklər. Yeni model imtahan sayının 4 vacib imtahandan 3-ə qədər azalmasını nəzərdə tutur. 2020-ci ildə ümumi qabiliyyət imtahanı vacib olmayacaq.**




Ali təhsil müəssisəsi sonrakı siyahıdan bir və ya bir neçə fənn üzrə əlavə imtahan təyin edə bilər: biologiya, kimya, fizika, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat, təsviri və tətbiqi incəsənət, vətəndaş təhsili.

**Abituriyentlər nəzərə almalıdırlar ki, ali təhsil müəssisəsi tərəfindən nəzərdə tutulan iki və ya daha çox imtahan təyin olunduğu halda abituriyent bir və ya bir neçə fənn seçə bilər.**

Qrant üç fənnin nəticələrinə əsasən verilir. Ancaq əgər ali təhsil müəssisəsi dördüncü fənn imtahanını verməyi də tələb edirsə, abituriyentə maliyyələşdirmə qazanmaq üçün daha bir şans verilir.

Dördüncü fəndən imtahan verməyi indiki mərhələdə yalnız 4 universitet tələb edir:

**İvane Cavaxişvili adına Tblisi Dövlət Universiteti**

• Beynəlxalq əlaqələr – ümumi qabiliyyət; coğrafiya.

• Hüquq – ümumi qabiliyyət; ədəbiyyat.

• Beynəlxalq hüquq – ümumi qabiliyyət.

**İlia Dövlət Universiteti**

• Hüquq – ümumi qabiliyyət; ədəbiyyat; vətəndaş təhsili.

**Gürcüstan Universiteti**

• Biznesin idarəsi – fizika, kimya,biologiya, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat.

• Biznesin idarəsi (ingilisdilli proqram) – fizika, kimya,biologiya, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat.

• İqtisadiyyat – fizika, kimya, biologiya, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat.

• İctimai idarəçilik – fizika, kimya, biologiya, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat.

• Strateji kommunikasiyalar – fizika, kimya, biologiya, ümumi qabiliyyət, coğrafiya, ədəbiyyat

**GIPA – Gürcüstanın İctimai İşlər İnstitutu**

• Audio-vizual və media incəsənəti – ədəbiyyat, təsviri və tətbiqi incəsənət.

Qeyd olunmalıdır ki, tibb tədris müəssisələrinin təşəbbüsünü nəzərə alaraq səhiyyə tədris proqramı üçün dörd vacib imtahan bunlardır:

1. Gürcü dili və ədəbiyyatı
2. Xarici dil
3. Biologiya
4. Riyaziyyat/kimya/fizika (abituriyentlər minimum birini seçməlidir). Dördüncü fənn üçün kvota yerləri, hər fənn üçün 30% -dən az olmayaraq ayrılacaq.

## MÜƏLLİM OLMAQ İSTƏYƏN 9000-Ə QƏDƏR NAMİZƏDDƏN TƏQRİBƏN 2300 NƏFƏRİ İMTAHANI VERƏ BİLİB

Müəllimlik kompetensiyasının təsdiqlənməsi imtahanına təqribən 10 min müəllimlik istəyi olan şəxs qeydiyyat olunub və bunun 8 896 nəfəri imtahanı verib.

Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi tərəfindən yayımlanan məlumata əsasən, imtahanda ən aşağı həddi 6 568 nəfər keçə bilməyib, 2 328 nəfər isə imtahanı uğurla verib.

Qeyd olunan haqqında “İmedi” teleşirkətinin efirində Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrina Abuladze danışıb və bildirib ki, kompetensiyanın təsdiqlənməsi imtahanını müəllim olmaq istəyənlərin təqribən 26%-i verib.

“Müəllimlik kompenetasiyasının təsdiqlənməsi imtahanına 10 min müəllimlik istəyi olan şəxs qeydiyyat olunub, bunun 9 minə yaxını imtahana daxil olub, onların 26%-i 10 kredit toplayıb və bu o deməkdir ki, uğurla maneəni aşıblar”, - İ.Abuladze bildirib.

Qeyd edək ki, 2019-cu ilin iyulunda baş tutan müəllimlik kompetensiyasının təsdiqlənməsi imtahanına ümumi hesabda 31 minə qədər şəxs qeydiyyat olunub və onun 20 mini təcrübəçi müəllim, 10 mini isə müəllimlik istəyi olanlar olub.

## MAİA TSKİTİŞVİLİ: 63 YENİ MƏKTƏB TİKİLƏCƏK

Gürcüstanın regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili parlamentdə çıxışı zamanı bildirib ki, “2020-2021-ci illərdə Gürcüstanda 63 yeni məktəbin inşası başa çatdırılacaq”.

Onun sözlərinə görə, məktəb və uşaq bağçalarının tikinti-bərpası prosesi davam etdiriləcək.

“Yeni inşa olunacaq 63 məktəb 8 400 şagird üçün nəzərdə tutulub. 87 məktəbdə isə bu il əsaslı təmir işlərinə başlanılıb”, - deyə nazir bildirib.

M.Tskitişvili qeyd edib ki, gələn ildən bələdiyyələr kiçik məktəblərin inşasını həyata keçirə biləcək.

***Səhifəni hazırladı: Aynurə Əliyeva***

# MƏZLUMLUQDAN MÜBARİZƏYƏ DOĞRU



Gürcüstanın ümumi əhalisi 3 milyon 723 min 500 nəfərdir. Bunun da yarim milyonunu milli azlıq hesab edilən azərbaycanlılar təşkil edir. 10 ildir deyirik ki, sayımız yarım milyondur, bəs təəccüblü gəlmirmi ki, bu 10 ildə heç artım olmayıbmı? Nəzərə alsaq ki, ailədə çoxuşaqlı olmağa üstünlük verən də, erkən evliliyin qurbanı olan da bizik, sayımızın artan xətlə deyil, 10 illərdir ki, stabil qalması nədənsə bir qədər təəccüblü gəlir. Əhalinin rəsmi olaraq siyahıyaalınması da (census.ge) 2014-cü ildən bu yana aparılmır, soruşanda da səbəb olaraq deyirlər ki, o qədər tolerantıq ki, Gürcüstan əhalisini milli, etnik azlıqlara ayırmırıq, hamımız bərabərhüquqlu Gürcüstan vətəndaşlarıyıq. Səbəb doğrudan budurmu, yoxsa sayımız o qədər artıb ki, artıq rəsmi rəqəmi dilə gətirmək belə vaxtilə "Gürcüstan gürcülər üçündür" deyənlərin davamçılarını hürküdür. Yeri gəlmişkən biz etnik azlıq deyilik, öz tarixi torpaqlarımızda yaşayırıq, bu torpağın aborigen əhalisiyik!!!

Avropaya inteqrasiya yolunu seçmiş Gürcüstanın bu yolu başa vurması üçün üzərinə götürdüyü əsas öhdəliklərindən biri də ölkəsində yaşayan etnik azlıqların hüquqlarının qorunması, hörmətlə yanaşmasıdır. Avropaya inteqrasiya üçün öhdəliklər bir kənara qalsın, Gürcüstan hökümətinin təhsil ilə bağlı qanunvericiliyinə əsasən, etnik azlıqlar öz ana dillərində təhsil almaq imkanları ilə təmin olunubdur.

Bəs bizim hüquqlarımız necə qorunur??? Ölkədə yaşayan ən böyük etnik azlıq kimi ANA dilimizdə təhsil almaq hüquqlarımız ilbəil necə qorunub saxlanılır?

1989-cü ildə Gürcüstanda 183 Azərbaycan məktəbi fəaliyyət göstərirdi. 2019-cü ildə 117 məktəb qaldı (117 məktəbdən 80-i Azərbaycan, 37-si isə sektor/bölmə məktəblərdir (Azərbaycan/gürcü, Azərbaycan/gürcü/rus bölmələri)). Konkret bir addım atılmasa, bu şəkildə davam edərsə 4-5 ilə bu məktəblərin kütləvi bağlanması qaçılmazdır.

Məktəblərin bağlanması səbəbi kimi təhsil keyfiyyətinin aşağı olması, infrastrukturun müasir tələblərə cavab verməməsi, bəzi məktəblərin qəzalı vəziyyətdə olması və s. göstərilsə də, ən başlıca səbəblərdən biri kadr çatışmamazlığıdır.

1935-ci ildə Pedaqoji Texnikom kimi təsis olunan, 1946-cı ildən institut statusu alan A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutu vaxtilə Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə müəllimlər yetişdirirdi. Sonralar Sulxan-Saba Orbeliani, hazırda isə İlia Çavçavadze adına Tbilisi Dövlət Universiteti adlandırılan bu ali məktəbdə 2010-cu ilə qədər bu ixtisas üzrə kadrlar hazırlanırdı.

Azərbaycan bölməsinin bağlanmasının səbəbləri nə oldu? Bu fakültənın işçiləri, müəllimləri, məzunları, o vaxtkı və indiki millət vəkillərimiz Azərbaycan bölməsinin bağlanmasına necə imkan verdilər, bununla necə barışdılar??? Azərbaycan bölməsi bağlandıqdan sonra yenidən açılması üçün nə üçün cəhd edilmədi? Bu başqa bir mövzudur, siz bunun səbəblərini fikirləşin, mən isə eyni ölkədə yaşayan, sayca bizdən qat-qat az olan digər bir millətin nümayəndələrinin necə fəal olmasını siz bəndələrə ərz edim.

***Hazırda Gürcüstanda 131 erməni məktəbi var, bu məktəblərin gələcəkdə bağlanma təhlükəsi sıfıra bərabərdir. İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində "Ermənişünaslıq" ixtisası üzrə gənclər təhsil alır, qədim və müasir erməni dilini, Ermənistanın tarixini, mədəniyyətini öyrənirlər. Biz isə Gürcüstanda sayımızın çox olmasına, çoxluq təşkil edən etnik azlıq (etnik azlıq da deyilik, öz tarixi torpaqlarımızda yaşayırıq) olanımızı da itirə-itirə gedirik.***

1990-cı ildə ermənilərin sıx yaşadığı Samtsxe Cavaxeti regionunda İvane Cavaxaşvili Tbilisi Dövlət Universitetinin Axalkalaki filialı yaradıldı, 2014-cü ildə isə filial Samtsxe Cavaxeti Dövlət Universiteti kimi rəsmi qeydiyyata alındı.

Azərbaycan tarixi Gürcüstanda tədris olunmur, bu bizim bədbəxtçiliyimizdir. Gürcüstanda yaşayan azərbaycanlıların əksəriyyəti Uzun Həsəni, Mehdi Hüseynzadəni, Əhmədiyyə Cəbrayılovu, Ziya Bünyadovu, Süleyman Əlyarlını tanımırlar. Tomirisi, Sara xatunu tanımırlar, Gürcüstanda anadan olan N. Nərimanovu belə tanımırlar. Bir tək Azərbaycan dili və ədəbiyyatı fənnində şagirdlər az-çox Azərbaycanla bağlı nəsə öyrənirlər, mədəniyyətimizi, tariximizi, ədiblərimizi əlaqəli şəkildə mənimsəyirlər. Gürcüstanda Azərbaycan məktəblərinin sayı ilbəil azalır, bir çox Azərbaycan məktəblərində gürcü sektorları açılır, daha sonra isə kadr çatışmamazlığı ucbatından Azərbaycan sektoru bağlanıb bir tək gürcü sektorunu saxlayırlar, beləliklə də uzunmüddətli düşünülmüş siyasət nəticəsində bir neçə ilə bir dənə də Azərbaycan məktəbi qalmayacaq və sonda fransızlar demiş, "vualá", it də getdi, ip də...

Kadr çatışmamazlığı pensiya, təqaüd yaşına çatmış müəllimlərin "mədəni" surətdə işdən çıxarılması ilə daha da kəskin hiss olunmaqdadır (gözünüz aydın ikinci axın "işdən çıxarılma prosesi" noyabr ayında da olacaq).

"Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Çünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir"(Həsən bəy Zərdabi).

Bu gün yaşanan problemlər bir tək Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin çatışmamazlığı ilə bağlı deyil. Riyaziyyat, fizika, kimya, biologiya, tarix və s. kimi fənləri tədris edən Azərbaycandilli müəllimlər də çatışmır. Azərbaycandilli media, jurnalistika, mətbuat, teatr ağrılı yerimizdir, bu sahələrin ciddi dəstəyə və inkişafa ehtiyacı var.

Bu yaşanan problemləri həll etməyin yeganə yolu Gürcüstanda tez bir zamanda Azərbaycan-Gürcüstan Universitetinin açılmasına nail olmaqdır.

***Xəyallarımın universiteti:***

1. Elə bir universitet ki, Azərbaycandilli kadrlar yetişdirəcək (riyaziyyat, fizika, tarix, Azərbaycan dili və ədəbiyyatı, kimya, coğrafiya və s.). Bu kadrlar gələcəkdə Azərbaycan məktəblərində dərs deyəcəklər, bəzi kadrlar isə universitetdə qalıb magistratura və doktoranturada təhsillərini davam etdirib, sonradan bu universitetdə dərs deyəcəklər. Azərbaycandilli kadrlar oxuduqları müddətdə, universitetə daxil olandan, universiteti bitirənə kimi gürcü dilini də mükəmməl öyrənəcəklər. Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan kadrların Gürcü dili və ədəbiyyatı fənnini də tədris etmək hüququ olacaq, beləliklə də gürcü məktəblərində də müəllim kimi işləmək imkanları olacaq.

2. Elə bir universitet ki, azərbaycanlılarla gürcülər bir yerdə təhsil alacaqlar, bir-birlərinin mədəniyyətlərini, dillərini, tarix və adət-ənənələrini birlikdə öyrənəcəklər.

3. Elə bir universitet ki, pedaqoji kadr hazırlayan fakültədən əlavə digər fakültələr də, biznes, hüquq, sosial elmlər və s. fəaliyyət göstərəcək, təhsil gürcü və ya ingilis dilində olacaq.

4. Elə bir universitet ki, fakültəsindən asılı olmayaraq bütün tələbələr üçün Azərbaycan və Gürcüstan mədəniyyətini, Azərbaycan və Gürcüstan tarixini bilmək məcburi olacaq, azərbaycanlılar üçün isə əlavə olaraq gürcü dilini bilmək məcburi olacaq.

5. Elə bir universitet ki, Azərbaycandilli media, jurnalistika, mətbuat və teatr üzrə də kadrlar yetişdirəcək, paralel olaraq gürcü dilində də mükəmməl öyrənəcəklər, bu isə mətbuatda məlumatların hər iki dildə çatdırılmasına, teatrda tamaşaların hər iki dildə oynanılmasına, ən önəmlisi də bu sahə üzrə güclü, PEŞƏKAR kadrların yetişməsinə gətirib çıxaracaq.

6. Elə bir universitet ki, Azərbaycan və gürcü xalqları arasında əsl dostluq münasibətlərinin inkişafına gətirib çıxaraq.

Belə bir universitetin əsasının qoyulması Azərbaycan və Gürcüstan hökumətlərinin birgə səyi nəticəsində mümkündür. Biz, Gürcüstan vətəndaşları isə imza toplayıb hər iki ölkənin prezident, baş nazir və təhsil nazirlərinə öz istəyimizi çatdıracağıq. Bir millət kimi yoxa çıxmaq istəmirsinizsə imza toplama aksiyasına qoşulun. (İmza üçün Marneuli şəhəri, Mazniaşvili küçəsində yerləşən Azərbaycanlıların İnteqrasiya Mərkəzinə (Ata Holdinqin binası) müraciət edə bilərsiz - RED.) Ziyalıları, müəllimləri, valideynləri, siyasətçiləri, gəncləri, qeyri-hökumət təşkilatlarının (QHT) rəhbərlərini, üzvlərini, imza atmaq hüququ olan hər kəsi aktiv olmağa səsləyirəm. Gələcəyiniz üçün indidən imza atın.

Ölkədə çoxluq təşkil edən etnik azlıq kimi, ANA dilimizdə təhsil almaq hüququmuz var. Avropaya inteqrasiya edən Gürcüstan çox gözəl bilir ki, Avropa ölkəsi olan İsveçrədə vətəndaşlar seçimlərindən asılı olaraq fransız, alman, italyan və ingilis dillərində orta və ali məktəblərdə təhsil ala bilərlər.

N. Nərimanovun məsələsi isə hələ də unudulmayıb, oğul istərəm bu universitetin N. Nərimanovun adını daşıması üçün yaltaqlıq, qorxaqlıq deyil, mübarizlik yolunu seçmiş olsun!!!

***Aygül İSAYEVA***
***Beynəlxalq Qafqaz Universitetinin Assosativ Professoru, İqtisadiyyat üzrə fəlsəfə doktoru***



# MƏMUR OLMAQ İSTƏYƏN TƏLƏBƏNİN ÖLÜMÜ

Heç bilmirəm nədən, necə başlayım. Bildiyim odur ki, hardansa, nə cürsə başlamaq lazımdır. Elə bu gün də, sabah da, fərq etməz, təki başlamaq içində olsun. Atalar demişkən: gec olsun, amma güc olmasın. Güc olsa da gücü hara salacağımız da önəmlidir – xirtdəkdən aşağı, yoxsa yuxarı.

Həmişə məni narahat edən bir hekayə var, Anton Çexovun "Məmurun ölümü" adlı hekayəsi. Daha doğrusu hekayə yox, onun doğurduğu fikirlər məndə narahatlıq yaradır. Hekayəni oxumayan varsa, mütləq oxumalıdır. Elə uzun hekayə deyil. Özünüzü narahat eləsəniz, uzağı 15-20 dəqiqə vaxtınız gedər. Spoiler vermədən, hekayəni mənasızlaşdırmadan qısaca desək, hekayədə bir məmur ondan daha vəzifəli bir məmurun ona dediyi adi bir ifadəyə görə narahatlıq yaşayır və həmin məmura lüzumsuz narahatlıq yaradır. Bundan sonra həmin məmurdan daha sərt reaksiya alır və ölür. Anton Çexovun hekayədəki əsas obrazı olan məmur İvan Çervyakovun ölümü simvolik olaraq məmur ölümü kimi təsir bağışlasa da, bu gün belə ölümləri çox yerdə görə bilərik. Bu ölüm heç də maddi ölüm deyil. Bu, acizliyin labirintində azmış, özünü divarlara vuran cılız mənəviyyatlı insanların ölümüdür. İnsan belə öləndə maddi olaraq var olsa da, mənəvi olaraq yox olur, ölür. Allah rəhmət eləməsin!

Çox uzağa getmədən ətrafımıza baxsaq, Çervyakov bənzəri onlarla məmur var. Ən pisi odur ki, bu məmurların xəstəliyi gənclərə də keçib. Artıq məmur olmaq arzusunda olan gənclərdən də boluq. Məmur olanları da çoxdur. Bizdəki potensial Çervyakovlar isə gördükləri işlərdən tam olaraq baş çıxarmırlar. Onların vahid məqsədi sadəcə məmur olmaqdır. Bəs bu Çervyakovlar harda və necə yetişirlər?

Yeni tədris ili başlayanda hər zaman yeni tələbələri düşünürəm. Görəsən necə olacaqlar? Necə olacaqlar dedikdə universitet dönəmi və ondan sonrakı həyatlarında necə olacaqlarını nəzərimdə saxlayıram. Onlara qədər olanlar çox şey alındıra bilmədi. Öz icmasına işləyənlərin sayı barmaqla sayıla biləcək qədərdir. Tələbələrin heç bir aktivlikləri yoxdur, sanki Tiflisin girişində qanlarını sorub, başlarına da çip yerləşdirib buraxıblar şəhərə. Bir növ ətdən robot. Aydın məsələdir ki, kənddən gələn lobya ilə badımcanın ümidinə tələbədən enerji gözləmək də insafsızlıq olar, lakin bu qədər də yox. Bir az həyat tərzinə əl gəzdirib tərpənmək, qımıldamaq lazımdır. Arada öz tələbəliyimi xatırlayanda bu günlə müqayisə etməyə bənzər bir şey tapmıram. Məsələn, 4-5 il öncəsində Tiflisdə tələbələrin sayı indikinə nisbətən az olsa da canfəşanlıq və coşqunluq daha çox idi. Tələbələr bütün imkanlardan yararlanmağa çalışırdılar. İndi isə hər kəs universiteti bir göz qırpımında bitirib özünə yer etməyə çalışır. Mübarizə hər zaman yaxşıdır, lakin bu gün inkişaf edə bilməsəniz, sabah siz də Çervyakov kimi məmur olmağa məcbur olacaqsınız. Bizim hekayələrdə ölənlər isə heç vaxt dirilmir...

**Elməddin MƏMMƏDLİ**
*"Gündəlik – Gürcüstan" facebook səhifəsinin idarəçisi, Media İnkişaf Fondunun laboratoriyasının regional şəbəkəsinin üzvü.*

# "PİNQVİNLƏR" SİYAHISINA DÜŞMƏMƏK ÜÇÜN BİRİNCİ KURS TƏLƏBƏLƏRİNİN BİLMƏSİ VACİB OLAN TERMİNLƏR



**Vahid milli imtahanlar nəticəsində ali təhsil müəssisələrinə qəbul olan, yeni tədris ilindən həyatın yeni mərhələsinə keçən abituriyentlərə birinci semestr bir qayda olaraq universitetdəki auditoriyaları yadda saxlamaq, spesifik terminologiyalarla tanışlıq və korpusların yerləşməsini müəyyənləşdirmək lazım olur. Gərginlikdə olan birinci kurs tələbələrini tanımaqda heç kim çətinlik çəkmir və buna görə də yuxarı kurs tələbələri onları "pinqvin" adlandırırlar.**

**Tezliklə "pinqvin" statusunu özünüzdən uzaqlaşdırmaq və yeni mühitə uyğunlaşmaq istəyirsinizsə, "Etaloni.ge" saytının hazırladığı terminləri sizə təqdim edirik:**

**İnzibati qeydiyyat (Administrativ qeydiyyat)** – tələbənin universitet bazasına qeydiyyat olunmasını nəzərdə tutur. Qeydiyyat ali təhsil müəssisəsi tərəfindən tələb olunan sənədlərin təqdim olunması və məbləğin ödənməsi əsasında olur.

**Akademik qeydiyyat** – fənn qeydiyyatı hər semestr başlayana qədər tələbə tərəfindən fərdi cədvəlin hazırlanmasını, yəni müəyyən edilmiş vaxtda tədris disiplinini seçməyi nəzərdə tutur.

**Akademik təqvim** – tədris ili ərzində müəyyən edilmiş istirahət günlərini, tətili, imtahan dövrünü və s. nəzərdə tutur.

**Sillabus** – konkret fənn üzrə nə öyrənəcəyinizi, hansı dərsliklərin lazım olacağını, eləcə də mühazirələrə əsasən yerinə yetirəcəyiniz tapşırıqlar və s.

**Leksiya (mühazirə)/seminar** – çox hallarda birinci kurs tələbələri leksiya və seminar arasında fərqi başa düşmürlər, belə ki, diqqətli olun! Leksiyada lektor yeni materialı izah edir və tapşırıq verir. Seminar isə tələbələrin vaxtıdır. Məhz seminarda verilmiş tapşırıqlar lektora təhvil verilir.

**Kreditlər** – bir tədris ili ərzində tələbə 60 kredit toplayır. Fənlərin əksəriyyəti 5 kreditlikdir, belə ki, tələbələr kreditləri fəallığa, seminar təhvil verməyə görə, aralıq və final imtahanlarını yazan zaman toplayırlar.

**GPA (Grade Point Average)** – tələbənin ümumi qiymətləndirilməsi üçün istifadə olunan universal ölçüdür. Ondan demək olar ki, bütün universitetlər istifadə edir. Universiteti bitirənlərin diplomuna orta qiyməti müəyyən etmək üçün ilk əvvəl tələbə tərəfindən əldə edilən qiymətləndirmələrin müvafiq GPA ilə uyğunluğu aşağıdakı prinsiplə müəyyən edilir:

100 ballıq sistem olan zaman:
A - 91-100 bal göstəricisi GPA - 4.0;
B - 81-90 bal göstəricisi GPA - 3.0;
C - 71-80 bal göstəricisi GPA - 2.0;
D - 61-70 bal göstəricisi GPA - 1.0;
E - 51-60 bal göstəricisi GPA - 0,5;
F-FX - 0-50 bal göstəricisi GPA 0.

**"Kviz" (Viktorina)** – tələbənin qiymtələndirilməsi üçün vasitələrdən biridir. Bu, lektorun bir və ya bir neçə leksiyasının materialını birləşdirir və öyrəndiyiniz materialı bunun vasitəsilə təhvil verirsiniz.

**Aralıq imtahanı, kollokvium** – tədris semestri ərzində tələbə minimum bir aralıq imtahanı verir. Demək olar ki, bu, finaldan əvvəlki imtahandır.

**Final imtahanı** – tələbənin yekun qiymətləndirmə vasitəsidir. Semestrin sonunda tələbə bütün öyrəndiyi materialı bir qayda olaraq yazılı formada təhvil verir. Final imtahanı əsasən 40 ballıqdır. Ancaq ballar universitetlərdə bundan az və ya çox da ola bilər. Tələbənin fənni uğurla təhvil verməsi üçün final imtahanının nəticəsi ilə yanaşı minimum 51 bal toplaması lazımdır.

**Təkrar imtahan** – bu, tələbənin demək olar ki, ikinci şansıdır. Əgər tələbə final imtahanını verdikdən sonra minimal keçid balını (51bal) toplamayıbsa ona universitetdə ikinci dəfə imtahan vermək imkanı verirlər ki, ballarını təkmilləşdirsin.

**Fənn kəsiri** – əgər tələbə semestrin sonunda minimal keçid maneəsini aşa bilmirsə fəndən verdiyi imtahan hesab edilmir. Əgər kəsir olan fənn vacib fəndirsə tələbə onun imtahanını növbəti semestrdə verməlidir.

**Kampus** – tələbə şəhərciyi, yəni universitet tələbələrinin ümumi yaşayış yeri.

***Gürcü dilindən tərcümə: A.Əliyeva***

# 6 MİNDƏN ÇOX MÜƏLLİM İŞDƏN ÇIXIR



"6 mindən çox müəllim öz istəyi əsasında təqaüdə göndərilməsi ilə bağlı qeydiyyata alınıb". Bu barədə Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili parlamentdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, həmin müəllimlər ikiillik əməkhaqqına bərabər məbləğdə mükafat alacaqlar.

"Bu, olduqca vacib islahatdır. Dövlət könüllü olaraq layiqli təqaüdə çıxmağa qərar verən müəllimləri mükafatla təmin edəcək", - deyə M.Batiaşvili bildirib.

Nazir təhsil sahəsində yeni kadrlarla bağlı əlavə addımların atılacağını deyib.

O əlavə edib ki, məktəb islahatları ilə bağlı ilk mərhələ başa çatıb, ikinci mərhələyə isə payız aylarında start veriləcək.

## KVEMO KARTLİDƏ BİRİNCİ MƏDƏNİ MİRAS FORUMU KEÇİRİLİB



Kvemo Kartli bölgəsi Tetritsğaro (Ağbulaq) bələdiyyəsində mədəni mirasla bağlı ilk foruma ev sahibliyi edib. Tədbiri rəsmi olaraq Gürcüstan prezidenti Salome Zurabişvili açıb.

"Əgər keçmiş elə keçmişdə qalırsa bu onun yarısının ölməsi deməkdir, amma onun canlandırılma məqamı nəinki uşaqlar və gənclər, hətta bütün ictimaiyyət üçün əhəmiyyətlidir. Bizim çoxəsrlik tarixi və mədəni irsimiz dağıntı, müharibə və işğaldan sonra bizə gələcəyə inam verir ki, hələ çox əsrlər boyunca biz var olacağıq, yaşayacağıq. Çünki bunların hamısını qoruya və dəyərləndirə bilərik", - deyə prezident çıxışı zamanı bildirib.

Kvemo Kartli qubernatoru Şota Rexviaşvili də çıxış edərək tədbirin təşkilatçılarına təşəkkür edib və forumun əhəmiyyətindən danışıb.

"Böyük zəhmət, düşünülmüş planlaşdırma və rasionalizmlə yaxşı nəticəyə nail olacağıq. Mən sevinirəm ki, burada iştirak edən ictimaiyyətə tapıntımızı, zənginliyimizi və kimliyimizi göstərə bildik. Mədəni irsin qorunmasında hər birimizin rolu danılmazdır. Bu tədbir də məhz öz əhəmiyyəti ilə həmin nəticəyə aparıb çıxaracaq", - Şota Rexviaşvili bildirib.

Mədəni irsin mühafizəsi üzrə milli agentliyin baş direktoru Nikoloz Antidze tədbirdə 9 aylıq fəaliyyətlərinin hesabtını təqdim edib. Həmçinin Tetritsğaroda yerləşən Barataşvili iqamətgahına mədəni irs abidəsi statusunun verilməsi mərasimi də keçirilib.



Mərkəzi və yerli hakimiyyətin, Mədəni İrsin Mühafizəsi üzrə Milli Agentliyin, "Sağdrisi Komitəsi" İctimai Birliyinin və "RMG" şirkətinin nümayəndələri şəhərin mərkəzi meydanında yerləşən pavilyonları nəzərdən keçiriblər. Pavilyonlarda qonaqlara bələdiyyənin tarixi, mədəni və turistik potensialı haqqında foto və video materiallar təqdim olunub.

## AĞMƏMMƏDLİ KƏNDİNİN İÇMƏLİ SU PROBLEMİ HƏLL OLUNUB



Marneuli rayonunun Ağməmmədli kəndinin içməli su təminatı ilə bağlı həyata keçirilən genişmiqyaslı layihə başa çatdırılıb. Layihə çərçivəsində 640 ailənin içməli su ilə təchizatı məqsədilə daxili şəbəkələr tikilib. Uzunluğu 20 600 metr olan su borusunun çəkilməsi layihəsi iki mərhələdə həyata keçirilib.

Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, onun müavini Zviad Çunaşvili və Marneuli rayonunun icra başçısı Zaur Darğallı Ağməmmədli kəndində olublar. Hökumət nümayəndələri kənddə yaşayan ailələrə baş çəkib və onları içməli su probleminin həll olunması münasibətilə təbrik ediblər.

Qeyd edək ki, Ağməmmədli kənd sakinləri illərdir içməli su problemindən əziyyət çəkiblər.

## GÜRCÜSTANDA NƏ QƏDƏR AZƏRBAYCANDİLLİ MƏKTƏB VAR?



Gürcüstanda tədrisi Azərbaycan dillində aparılan məktəblərin ümumi sayı 120 təşkil edir. Bu barədə "Report"un Gürcüstan bürosunun sorğusuna cavab olaraq Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin Təhsilin İdarəolunması üzrə İnformasiya Sistemi Mərkəzindən məlumat verilib.

Bildirilib ki, bu məktəblərdən 80-i Azərbaycandillidir. Yerdə qalan 40 məktəbdə isə Azərbaycan bölməsi fəaliyyət göstərir.

İllik müqayisədə Gürcüstanın ictimai məktəblərində Azərbaycan bölmələrinin sayı artıb. Belə ki, Mərkəzin ötən il təqdim etdiyi məlumata görə Azərbaycan bölmələrinin sayı 38 təşkil edib.

## BAŞ NAZİR GİORGİ QAXARİA BÖLGƏ QUBERNATORLARI İLƏ GÖRÜŞÜB



Baş nazir Giorgi Qaxaria bölgə qubernatorları ilə görüş keçirib. Hökumət administrasiyasında baş tutan görüşdə G.Qaxaria bölgələrdə mövcud problemlərin həll olunmasının zəruriliyini qeyd edib. O, qubernatorlara problemlərin həlli istiqamətində konkret fəaliyyət planı hazırlamağı tapşırıb.

Baş nazir bildirib ki, bölgə rəhbərləri tez, effektiv və ən əsası vicdanla fəaliyyət göstərməlidirlər.

"Yaxın günlərdə siz regionlarda mövcud problemləri müəyyən etməli və konkret plan təqdim etməlisiniz. Sizin vəzifəniz problemləri həll etməkdir, onları yaratmaq deyil", - deyə G.Qaxaria bildirib.

Görüşdə Kvemo Kartli qubernatoru Şota Rexviaşvili də iştirak edib.

## AZƏRBAYCANIN TƏHSİL NAZİRLİYİ GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRƏ DƏRSLİKLƏR GÖNDƏRİB



Azərbaycanın Təhsil Nazirliyi Gürcüstanın Azərbaycandilli məktəblərinə 2019-2020-ci tədris ili üçün dərslik və metodik vasitələr göndərib.

Azərbaycanın Gürcüstandakı səfirliyi dərs vəsaitlərini Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinə təhvil verib.

Vəsaitlərə 1-11-ci siniflər üçün ümumilikdə 20 622 ədəd "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliyi və müəllimlər üçün metodiki vəsaitlər daxildir.

Dərs vəsaitlərinin yeni tədris ilinin başlanmasına qədər Azərbaycandilli məktəblərə çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, ötənilki tədris ilində Azərbaycandan Gürcüstana 24 127 ədəd "Azərbaycan dili" və "Ədəbiyyat" dərsliyi təqdim edilib.

## MARNEULİNİN İKİ KƏNDİNDƏ YOLA ASFALT QATININ ÇƏKİLMƏSİ İŞLƏRİ BAŞA ÇATIB



Marneuli bələdiyyəsinin Aşağı Saral və Seyidiqocalı kəndlərində yolun təmir-bərpa işləri başa çatıb.

Kvemo Kartli qubernatoru Şota Rexviaşvili və Marneuli bələdiyyəsinin icra başçısı Zaur Darğallı Aşağı Saral və Seyidiqocalı kəndlərində yol infrastrukturu ilə bağlı işləri nəzərdən keçirərək yerli sakinlərlə görüşüblər və onlara gələcəkdə kəndlərdə həyata keçiriləcək layihələr haqqında danışıblar.

Layihə çərçivəsində Aşağı Saralda 940 metr yola asfalt qatı çəkilib və bunun üçün Regionlarda Həyata Keçirilən Layihələr Fondundan 468140 lari ayrılıb. Seyidiqocalı kəndində 1100 metr yola asfalt qatının çəkilməsi üçün isə yerli büdcədən 682 815 lari ayrılıb.

## KVEMO KARTLİDƏ 80 MƏKTƏBİN İNFRASTRUKTURU YENİLƏNİB



Kvemo Kartli bölgəsində 2019-2020-ci tədris ili üçün 80 məktəbin infrastrukturu yenilənib. Təhsil müəssisələrində təmir-bərpa işləri başa çatdırılıb.

İctimai məktəblər istilik sistemi, sanitar qovşaqlarla təchiz edilib, siniflər, fasad və həyətləri bərpa olunub.

Bölgədə təhsil müəssisələrinin təmir və bərpasına 6 milyon laridən çox vəsait xərclənib.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 SENTYABR 2019-CU İL/ №017 (97)

# Yeni YOL

yeni_yol@mail.ru İCTİMAİ QƏZET ყენი იოლი საზოგადოებრივი გაზეთი qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## MAMUKA BAXTADZE DÜNYA BANKINDA ÇALIŞACAQ



Gürcüstanın keçmiş baş naziri Mamuka Baxtadzenin Dünya Bankında (DB) fəaliyyətini davam etdirəcəyi gözlənilir. Sabiq hökumət başçısı DB-nin Direktorlar Şurasına üzv olmağa hazırlaşır.

M.Baxtadze Şuraya üzv seçilməsi ilə bağlı təklifi ABŞ-dan alıb. Direktorlar Şurasına seçkilər 2020-ci ilin yazında keçiriləcək.

Qeyd edək ki, M.Baxtadze 2018-ci ilin iyunundan Gürcüstanın baş naziri olub. O, bu il sentyabrın 2-də istefa verib.

## BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN ƏN ÇOX AZALDIĞI 4 SAHƏ




Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, Gürcüstanda həyata keçirilən birbaşa xarici investisiyaların həcmi 2019-cu ilin 2-ci rübündə 187.0 milyon ABŞ dolları təşkil edib. Bu, 2018-ci ilin 2-ci rübünün göstəricilərindən 53,7 faiz azdır.

"BusinessPressNews" birbaşa xarici investisiyaların ən çox azaldığı 4 sahəni təqdim edir:

Energetika – cari ilin 2-ci rübündə bu sahədə həyata keçirilən investisiyanın həcmi 63,7 milyon dollar təşkil edib. Ötən ilin analoji dövründə investisiyaların həcmi 102 milyon dollar olub.

Tikinti – əgər ötən ilin 2-ci rübündə bu sahədə 46,2 milyon dollarlıq invesitisiya həyata keçirilibsə, cari ilin həmin dövründə bu göstərici 4,2 milyon dollar təşkil edib.

Daşınmaz əmlak (daşınmaz əmlakla əməliyyatlar, icarə və istifadəçiyə xidmət) – sahəsində 2019-cu ilin 2-ci rübündə həyata keçirilən birbaşa xarici investisiyalar 22,8 milyon ABŞ dolları təşkil edib. Ötən ilin analoji dövründə bu göstərici 63 milyon dollar olub.

Həmçinin nəqliyyat və rabitə sektorunda birbaşa xarici investisiyalar əhəmiyyətli dərəcədə azalıb. Cari ilin 2-ci rübündə bu sahədə 19,9 milyon dollarlıq investisiya həyata keçirilib, ötən ilin həmin dövründə isə 74,6 milyon dollar təşkil edib.

2019-cu ilin 2-ci rübündə ən böyük birbaşa investor ölkələrin siyahısında isə birinci yeri Niderland (31,1 faiz), ikinci yeri Türkiyə (19,2 faiz), üçüncü yeri ABŞ (14,7 faiz), dördüncü yeri Azərbaycan (8,4 faiz), beşinci yeri isə Panama (8,3 faiz) tutur.

## "LELO" ADLI YENİ İCTİMAİ HƏRƏKAT YARADILIB



"Lelo" adlı yeni ictimai hərəkat yaradılıb. Hərəkatın təqdimatı Anaklia şəhərində dəniz kənarında keçirilib.

İctimai hərəkatı "TBC Bank"ın təsisçiləri Mamuka Xazaradze və Badri Caparidze yaradıb.

M.Xazaradze bildirib ki, hərəkatın məqsədi Gürcüstanda birliyə nail olmaqdır.

Hərəkatın daha sonra siyasi partiyaya çevriləcəyi gözlənilir.

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU ARTIB



Son bir ildə Gürcüstanın xarici dövlət borcu 219 milyon ABŞ dolları və ya 4,2 faiz artaraq 5,3 milyard dollara çatıb. Bu barədə "BusinessPressNews" portalı məlumat yayıb. Məlumata əsasən, təkcə ötən ay Gürcüstanın xarici dövlət borcu 26 milyon dollar artıb.

Gürcüstanın ən çox borcu Asiya İnkişaf Bankınadır (1,14 milyard dollar).

Siyahıda 2-ci yerdə 985,6 milyon dollarla Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası, 3-cü yerdə isə 898,4 milyon dollarla Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı qərarlaşıb.

## AVQUST AYINDA RUSİYADAN GÜRCÜSTANA GƏLƏNLƏRİN SAYI 6% AZALIB



2019-cu ilin avqust ayında Gürcüstana 1 254 554 xarici vətəndaş gəlib, ötən ilin analoji dövrü ilə müqayisədə bu, 5,8% çoxdur. 2018-ci ilin avqust ayında isə ölkəyə 1 185 682 xarici vətəndaş daxil olub.

Daxili İşlər Nazirliyinin statistikasına əsasən, avqust ayında Rusiyadan gələnlərin sayı 6% azalıb. Əgər 2018-ci ilin avqustunda Rusiyadan Gürcüstana 270 022 nəfər gəlmişdisə, bu ilin avqustunda bu rəqəm 252 873 təşkil edib.

Digər ölkələrdən Gürcüstana səyahət edənlərin sayı isə belədir:

- Azərbaycan – 287 378 (+16%)
- Ermənistan – 249 706 (+4%)
- Türkiyə – 180 933 (+9%)
- Avropa İttifaqı ölkələri – 79 044 (+23%)
- Ukrayna – 33 240 (+21%)
- İsrail – 30 140 (+21%)

## AVİAŞİRKƏTLƏRƏ QARŞI SƏS-KÜYLƏ BAĞLI YENİ MƏHDUDİYYƏTLƏR TƏTBİQ OLUNACAQ



Gürcüstanda fəaliyyət göstərən xarici aviaşirkətlərə qarşı səs-küylə bağlı yeni məhdudiyyətlər tətbiq olunacaq. Bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb.

Yeni qaydalar artıq Gürcüstan aviaşirkətlərinə qarşı tətbiq olunmağa başlayıb.

Məhdudiyyətlərin məqsədi Gürcüstandakı hava limanlarında yaranan səs-küyün minimuma endirilməsidir. Yeni qayda ilə Gürcüstan Avropa İttifaqının "Ümumi Aviasiya Məkanı Sazişi" ilə nəzərdə tutulan tənzimləməni tam yerinə yetirmiş olacaq.

Gələn ildən qüvvəyə minəcək məhdudiyyətlər xarici ölkələrin dövlət, humanitar yardım daşıyan, ölkədə fövqəladə hallarda istifadə olunan, qeyri-kommersiya və texniki məqsədlərlə uçuşlar həyata keçirən təyyarələrə şamil olunmayacaq.

## GÜRCÜSTANDA DOĞUŞ AZALIB, ÖLÜM ÇOXALIB



2019-cu ildə Gürcüstanda doğuş 5,5% azalıb. Bu haqda məlumatı Milli Statistika Xidməti yayımlayıb.

2019-cu ilin yanvar-iyun aylarının əsas demoqrafik göstəricilərinə əsasən, Gürcüstanda sağlam doğulan uşaqların sayı 22 945 təşkil edib, 2018-ci ilin analoji dövrü ilə müqayisədə bu göstərici 1 367-yə qədər azdır (5,5%). Ötən il 6 ayda 24 312 uşaq dünyaya gəlib.

Ən çox – 7 580 uşaq paytaxtda, ən az – 122 uşaq Raca-Leçxumi və Kvemo Svaneti bölgələrində dünyaya gəlib.

Ölənlərin sayı isə 2019-cu ilin yanvar-iyun aylarında 24 563 təşkil edib, 2018-ci ilin analoji dövründə bu rəqəm 23 603 idi.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım Direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.